**TƏHSİL SEKTORUNUN İNKİŞAFI ÜZRƏ İKİNCİ LAYİHƏ**

**KREDİT № 4394AZ**

**DAĞLIQ ŞİRVAN İQTİSADİ RAYONUNDA 2011-2012-Cİ DƏRS İLİNDƏ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNƏ DƏRS DEYƏCƏK VƏ İNDİYƏDƏK TƏLİMDƏN KEÇMƏYƏN MÜƏLLİMLƏR ÜÇÜN YENİ KURİKULUM ÜZRƏ TƏLİMİN KEÇİRİLMƏSİNƏ DAİR**

**MARAĞIN İFADƏSİ ÜÇÜN DƏVƏT**

Azərbaycan Hökuməti Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin xərclərini ödəmək məqsədilə Dünya Bankından maliyyə vəsaiti almışdır. Həmin vəsaitin bir hissəsinin məsləhətçi xidmətlərinə sərf edilməsi nəzərdə tutulmuşdur.

**Xidmətlərin məqsədi:** Yeni ibtidai təhsil kurikulumunun tətbiqinə dəstək olaraq ibtidai sinif müəllimləri üçün təlimin keçirilməsi.

**İcraçı təşkilat üçün ixtisas tələbləri:**

Nizamnaməsinə uyğun olaraq, təşkilatın fəaliyyətinin əsas sahələri və istiqamətləri arasında təhsil və təlimlərin olması;

Təlim kurslarını keçirmək üçün lazım olan ən zəruri işçi heyətinə və maddi imkanlara malik olması;

Müəllimlər üçün təlim kurslarının və ya məktəblərlə birgə layihələrin həyata keçirilməsi sahəsində ən azı üç illik uğurlu iş təcrübəsi;

Məktəb kurikulumlarının həyata keçirilməsi üzrə təlim kurslarında təcrübəsi olan təşkilatlar üstünlüyə malik olacaqdır .

**İcra müddəti:** iyun-avqust 2011-ci il

Azərbaycan Respublikası Təhsil Nazirliyi müvafiq təşkilatları qeyd olunan təlimin həyata keçirilməsi üçün maraqlarını bildirməyə dəvət edir. Xidmətlərə maraq göstərən təşkilatlar müvafiq ixtisas tələblərinə cavab verdiklərini təsdiq edən aşağıdakı məlumatları və sənədləri **2011-ci il yanvarın 21-nə qədər** aşağıdakı ünvana təqdim etməlidirlər:

- müraciət məktubu;

- yerinə yetirilmiş müvafiq xidmətlərin təsviri;
- müvafiq bacarıq və təcrübəyə malik olan heyət haqqında məlumat;
- nizamnamə.

Təşkilat Dünya Bankının "Borcalanlar tərəfindən Məsləhətçilərin seçilməsi və İşə götürülməsi Qaydaları"na əsaslanan *Keyfiyyət və Dəyərə Əsaslanmış Seçim* metodu əsasında seçiləcəkdir.

Əlavə məlumatları iş günləri ərzində saat 09.00-dan 18.00-dək aşağıdakı ünvandan əldə etmək mümkündür:


Azərbaycan Respublikasının Təhsil Nazirliyi,

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə,

Layihənin Əlaqələndirmə Qrupu,

AZ1008, Bakı şəhəri, Xətai prospekti, 49.

Əlaqələndirici şəxs: Elvin Rüstəmov

Əlaqə telefonları: 496-37-59, 496-37-60; faks: 496-93-68.

Email: erustamov@ultel.net